**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 89**

**Bakı şəhəri** **18 oktyabr 2019-cu il**

“Bakı Fond Birjası” QSC-nin İdarə Heyəti tərəfindən 05.11.2012-ci il tarixli 2 saylı protokol ilə təsdiq edilmiş “Bakı Fond Birjası” QSC-də marketmeyker fəaliyyətinin predmeti olan qiymətli kağızların siyahısında, habelə marketmeyker fəaliyyəti üzrə alış kotirovkasının minimal həcmində dəyişikliyin edilməsinə dair

**Əmr edirəm**

1. Azərbaycan Respublikasının üzv olduğu Beynəlxalq Maliyyə təşkilatları tərəfindən buraxılan qiymətli kağızlar marketmeyker fəaliyyətinin predmeti kimi təsdiq olunan 1-ci qrup qiymətli kağızların siyahısına daxil edilsin.

2. Marketmeyker fəaliyyəti üzrə alış kotirovkasının minimal həcmi dəyişdirilərək aşağıdakı kimi müəyyən edilsin:

- 1-ci qrup qiymətli kağızlar (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət İstiqrazları, Azərbaycan Respublikası Mərkəzi Bankının notları, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun istiqrazları və Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq maliyyə təşkilatlarının buraxdığı qiymətli kağızlar) üzrə 300,000 (üç yüz min) manat;
- 2-ci qrup qiymətli kağızlar (digər emitentlər tərəfindən emissiya edilmiş korporativ istiqrazlar və səhmlər) üzrə 50,000 (əlli min) manat.

Eldar Abdullayev

İdarə Heyətinin sədri v.m.i.e.